

## *İqor Korotçenko:*

# Bu gün Prezident İlham Əliyev dünyanın aparıcı liderlərindən biridir

***Rusiyanın "Natsionalnaya oborona" jurnalının baş redaktoru, tanınmış hərbi ekspert İqor Korotçenko Trend-ə bildirib ki, bu gün Azərbaycan Prezidenti İlham Əliyev dünyanın aparıcı liderlərindən biridir. İqor Kotoçenko qeyd edib ki, İkinci Qarabağ müharibəsində Qələbənin qazanılmasında Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin çox mühüm rolu olub: "Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə Azərbaycan iqtisadiyyatı səmərəli və dayanıqlı inkişaf edib, bu isə lazımi maliyyə vəsaitinin daxil olmasını təmin edib və vəsaitlərin bir hissəsi Azərbaycan Ordusunun müdafiə qabiliyyətinin gücləndirilməsinə, ən müasir silahların və hərbi texnikanın yeni növlərinin alınmasına sərf edilib.***

Bu müddət ərzində Azərbaycanın siyasi sistemi güclənib, ölkə beynəlxalq strukturlarda və beynəlxalq arenada lazımi çəki və nüfuz qazanıb. Müharibə qaçılmaz olduğu anda, növbəti erməni təxribatı zamanı Azərbaycan genişmiqyaslı əməliyyat həyata keçirdi və bunun nəticəsi olaraq Ermənistan məğlub oldu, Azərbaycan isə ərazi bütövlüyünün bərpa etdi. "Dəmir yumruq" əməliyyatının özü bu gün dünyanın aparıcı hərbi akademiyalarında müasir yüksək texnologiyalı, effektiv döyüş nümunəsi kimi öyrənilir".

**Korotçenko vurğulayıb ki, hərbi ekspertlərin və analitiklərin diqqət yetirdiyi iki məqam hücum və kəşfiyyat sinfinə aid pilotsuz uçuş aparatlarından misli görünməmiş istifadə, eləcə də xüsusi təyinatlıların effektiv istifadəsidir:** "Şuşa əməliyyatı bu gün Azərbaycan xüsusi təyinatlılarının misilsiz uğuru və pilotsuz uçuş aparatlarından istifadə nümunəsi kimi öyrənilir ki, bu da Azərbaycana əks-hücum əməliyyatında bir sıra böyük uğurlar əldə etməyə imkan verib. Prezident, Ali Baş Komandan İlham Əliyev döyüşlərə bilavasitə rəhbərlik edib, bütün əsas qərarları qəbul edib, döyüş əməliyyatlarının gedişini gündəlik təhlil edib, Azərbaycan Silahlı Qüvvələrinin, eləcə də digər güc strukturlarının və xüsusi xidmətlərin rəhbər heyəti ilə müşavirələr keçirib. O, öz iradəsi, qətiyyəti və strateji görüş dairəsi sayəsində Azərbaycan ordusunun hücum əməliyyatlarını məharətlə təşkil etdi və bu da son nəticədə Ermənistanın darmadağın olunması ilə başa çatdı. Prezident İlham Əliyev bir sərkərdə, bir siyasətçi kimi Paşinyandan çox üstün idi və çətin müharibədə qazandığı effektiv qələbə sayəsində bu gün dünyanın aparıcı liderlərindən birinə çevrilib".

***(ardı 5-ci səhifədə)***

*(əvvəli 1-ci səhifədə)*

**Ordunun təchiz olunmasına gəlincə, Korotçenko qeyd edib ki, Azərbaycan silah əldə etdiyi mənbələrini şaxələndirib:** "Ən əsaslarından biri Rusiya Federasiyası idi. Azərbaycan Rusiyadan 5 milyard dollardan çox silah alıb ki, bu da eyni zamanda Azərbaycan ordusunun hərbi potensialının əsasını yaradıb. Bundan başqa, Türkiyə, İsrail və digər ölkələrdən də ən müasir silahlar alınıb. Ancaq vacib olan təkcə silah almaq deyil, onları bir sıra təlimlər zamanı praktiki döyüş istifadəsini həyata keçirmək idi. Azərbaycan ordusu ən müasir silah növləri ilə müasir hücum və müdafiə hərəkətlərinin aparılmasının metod və formaları üzərində işləyib və hazırlayıb.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini silah gücü ilə həyata keçirdi. Azərbaycanın yeddi rayonunun ərazisində 30 ildə buranı cansız səhraya çevirən erməni işğalçıları olub. Hər şey tamamilə dağıdılıb - şəhərlər, kəndlər, qəsəbələr. Heç bir şey qalmayıb, hər şey tamamilə sökülüb, dağıdılıb. Bu isə zamanın hərəkəti deyil, insanların hərəkətidir".

**İqor Korotçenko qeyd edib ki, Ermənilər döyüş qənimətləri ilə fəal şəkildə ticarət edirdilər:**

"Bu ərazilərin bərpası bu gün bir nömrəli vəzifədir. Orada heç nə qalmayıb - nə şəhərlər, nə də infrastruktur. Ağdamda hətta kanalizasiya borularının da qazılaraq götürülməsi, şəhər kanalizasiya kommunikasiyalarının



## İqor Korotçenko:

# Bu gün Prezident İlham Əliyev dünyanın aparıcı liderlərindən biridir

Qoşunlara, batalyon taktiki qruplara hərbi əməliyyatlar meydanında nəzarət etməyə və effektiv idarəetməni təmin etməyə kömək edən döyüş idarə sistemi və əlbəttə ki, döyüş nəzarətini təmin edən rabitə sistemi haqqında ayrıca danışmaq lazımdır. Qələbənin mühüm komponentləri var idi, texniki təchizatı, döyüş ruhu, döyüş hazırlığının səviyyəsi baxımından Azərbaycan Ordusu bu gün regionun ən yaxşı ordularından biridir".

**Rusiyalı hərbi ekspert qeyd edib ki, praktika göstərdi ki, faktiki olaraq Azərbaycan BMT Təhlükəsizlik Şurasının Ermənistanı işğal etdiyi əraziləri tərk etməyə çağıran həmin dörd qətnaməsini silah gücü ilə yerinə yetirdi:** "Azərbaycan ədalətli azadlıq müharibəsi aparırdı, bu, Vətən müharibəsi idi və Prezident başda olmaqla ordunun, xalqın əhval-ruhiyyəsi bu müharibədə bütün Azərbaycanın dəstəyini təmin etdi. Biz hərbi komissarlıqlardakı növbələri, Ermənistanın yatmış Azərbaycan şəhərlərini operativ-taktiki raketlərlə vurduğu zamanı xatırlayırıq, lakin bu, Azərbaycanı heç bir şəkildə qorxutmadı, əksinə, Azərbaycan xalqı Qələbəni təmin etmək arzusu ilə Ali Baş Komandanın ətrafında daha da sıx toplaşdı. Biz burada ordu ilə xalqın tam birliyini gördük. Əslində bu, bir il əvvəl əldə edilmiş Qələbənin əsasının böyük hissəsi oldu.

yerində ancaq xəndəklərin qalması məni heyrətə gətirdi. Bunlar insanı heyrətə gətirir - dağıdılan və talan edilən qəbiristanlıqlar, qazılmış qəbirlər, postamentlərdən sökülən, çəkic və silahın qundağı ilə sındırılmış abidələr - mən bütün bunları Ağdama və Füzuliyə səfər edəndə öz gözlərimlə görmüşəm. Böyük minalanmış sahələr - bütün bunları təmizləmək, dağıdılanları bərpa etmək lazımdır".

**Korotçenko vurğulayıb ki, Azərbaycanın bu gün nümayiş etdirdiyi temp heyrətamizdir, bu gün Füzulidə ultra müasir beynəlxalq səviyyəli hava limanı tikilib, Qələbə yolu isə dünya səviyyəli magistraldır:** "Erməni işğalçıları tərəfindən dağıdılmış memarlıq və incəsənət inciləri yenidən dirçəlir. Şəhərlərin dirçəldilməsi planı həyata keçirilir, Ağdam 21-ci əsrin şəhəri olacaq, "Ağıllı kəndlər" yaranacaq. Azərbaycan bu gün 21-ci əsrin şəhərsalma şedevrlərini nümayiş etdirəcək, "Ağıllı şəhərlər", "Ağıllı kəndlər" – bu, dünya şəhərsalma siyasətinin yeni səviyyəsidir və biz bunu çox yaxın gələcəkdə görəcəyik. Şübhə yoxdur ki, bütün bu planlar öz imkanlarına, Azərbaycan xalqının zəhmətsevərliyinə, 30 il ərzində cansız səhra olan yerə həyat qaytarmaq istəyinə arxalanaraq qısa zamanda həyata keçiriləcək".

**Hərbi ekspert qeyd edib ki, Azərbaycanda siyasi sistem öz effektivliyini sübut edib və iqtisadiyyatı uğurla inkişaf etdirir:** "Azərbaycan öz nümunəsi ilə hələ də problemlərin mövcud olduğu bir çox başqa dövlətdə də ola biləcək daha yaxşı gələcək nümayiş etdirəcək. Və biz bilirik ki, dünya dövlətlərinin ən azı yarısının çoxlu problemləri var və Azərbaycan bu problemlərin necə həll olunduğunu özünün səmərəli inkişaf nümunəsi ilə göstərəcək. Prezident İlham Əliyev bu gün beynəlxalq miqyaslı siyasətçidir, ona görə də Azərbaycanın irəli sürdüyü təşəbbüslər bütövlükdə insan sivilizasiyasına aiddir. Odur ki, Azərbaycanın Qoşulmama Hərəkatında liderliyi, ümumiyyətlə, BMT Təhlükəsizlik Şurası səviyyəsində qlobal təşəbbüsləri, o cümlədən pandemiya ilə mübarizə, dayanıqlı inkişafın təmin edilməsi təşəbbüsləri obyektiv şəkildə Azərbaycanı dünya ictimaiyyəti üçün beynəlxalq gündəmi formalaşdıran ölkələr sırasına daxil edir. Bu baxımdan Azərbaycan Prezidenti beynəlxalq siyasətçi kimi öz fəaliyyətini təkcə Azərbaycanın və Cənubi Qafqazın maraqları naminə deyil, həm də insan sivilizasiyası üçün dayanıqlı inkişafın vəzifə və məqsədlərinin mənafelərinə uyğun formalaşdıracaq və davam etdirəcək".

**Üçtərəfli Bəyanatın icrasına gəlincə, hərbi ekspert qeyd edib ki, gecikmələr var, Ermənistan öz öhdəliklərini yerinə yetirmək istəmir:** "Ermənistanın, ilk növbədə, sərhədlərin delimitasiyası və demarkasiyası, qeyri-qanuni silahlı birləşmələrin Azərbaycanın Qarabağ bölgəsindən çıxarılmasının praktiki icrasına başlaması lazımdır. Daha sonra Ermənistan minalanmış ərazilərin xəritələrini Azərbaycana tam verməlidir. Sülh müqaviləsinin müzakirəsinə başlamaq lazımdır, amma ən əsası bir-birinin ərazi bütövlüyünü tanımaqdır. Azərbaycan bütün bunları etməyə hazırdır. Ermənistan isə, biz görürük ki, hazır deyil. O, təxribatlarla məşğul idi, indi isə vaxtı uzatmağa və üçtərəfli Bəyanatla bağlı öhdəliklərini tamamilə yanlış şərh etməyə çalışır.

Şübhəsiz ki, regionda nəqliyyat kommunikasiyalarının açılması, Zəngəzur nəqliyyat dəhlizinin mümkün qədər tez işə salınması və bütün Cənubi Qafqaz regionunun iqtisadi tərəqqisinə və inkişafına imkan yaradacaq "3+3" təşəbbüsünün həyata keçirilməsi çox vacibdir. İrəvanda xoş iradə yoxdursa, heç bir təşəbbüs İrəvanı buna sövq etməyəcək. Mənə elə gəlir ki, Azərbaycan işğal etdiyi əraziləri nə qədər tez bərpa etsə, Şuşanı, Hadrutu dirçəltsə, Qarabağ erməniləri üçün bir o qədər cəlbedici olacaq, çünki separatçılar yoxsulluq, aşağı həyat səviyyəsi, insan kapitalının deqradasiyası və perspektivsizlik ilə üzləşəcəklər. Azərbaycan işğaldan azad edilmiş əraziləri nə qədər tez dirçəltsə, Qarabağ ermənilərinə İrəvanın yalançı mesajlarını, erməni millətçilərinin təbliğatını unutmağa, daha yaxşı gələcəyə ümid etməyə bir o qədər stimul verəcək. Qarabağın erməni əhalisi bu gözəl gələcəyi yalnız çoxmillətli, çoxkonfessiyalı, dünyəvi Azərbaycanda yaşayan xalqlardan biri kimi Azərbaycanın tərkibində olarkən əldə edə biləcək".

**İqor Korotçenko hesab edir ki, dünya ictimaiyyəti bu gün 30 ildir məşğul olduğu ikili standartlarla məşğuldur:** "Dünya ictimaiyyəti yalançı və hiyləgərdir, orada, Fransada, ABŞ-da və bir sıra başqa ölkələrdə kütləvi şəkildə erməni diasporları işləyir, reallığı təhrif edirlər. Faktiki olaraq dünya ictimaiyyəti regiondakı vəziyyətə erməni eynəyi ilə baxır, ona görə də dünya ictimaiyyətinin hansısa formada kömək edəcəyi ilə bağlı illüziya olmamalıdır. Azərbaycan diplomatiyası fəal işləməlidir. Azərbaycan regionda və onun ətrafında gedən proseslərə obyektiv nöqteyi-nəzərin çatdırılması imkanları yaratmalıdır.

Ən əsası, Cənubi Qafqaz regionunun gələcəyini dərk etmək və qurmaqda ekspert-analitik ictimaiyyəti aktivləşdirmək lazımdır. Siyasətçilərin hələ hazır olmadıqları və ya müzakirə etmək fikrində olmadıqları təşəbbüsləri həyata keçirmək lazımdır. Ona görə də ekspertlər və analitiklər problemlərin dərk edilməsi, yol xəritələrinin hazırlanması və Ermənistanı üçtərəfli Bəyanatı yerinə yetirməyə necə təşviq etmək olar məsələlərində fəal iştirak etməlidirlər".